

**100 ilin qəzeti**

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 44 (24.479)

*15 noyabr 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.

Görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Siz ölkəmizin müxtəlif bölgələrinə rəhbər vəzifələrə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Siz öz işinizlə, əməyinizlə qarşıda duran vəzifələrin icrası üçün səylərinizi əsirgəməyəcəksiniz.

Əlbəttə ki, böyük məsuliyyət böyük işlər tələb edir. İlk növbədə, mənim bütün tapşırıqlarımı yerinə yetirməlisiniz. Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır, ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru, nəticədə, məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar, əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik etdiyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir.

Bizim bölgələrimizdə əsas infrastruktur layihələri, demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələləri var. Ancaq bu problem artıq ciddi problem kimi mövcud deyil. Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır.

Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilmərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının, təqribən, 70-80 faizi təmirlidir və keyfiyyətlidir.

Bütün şəhərlərdə içməli su layihələri icra edilir. Kəndlərdə də içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir, yeni su anbarlarının, su kanallarının tikintisi və suvarma ilə bağlı vəziyyət, ümumiyyətlə, müsbətə doğru dəyişir. Bütün digər infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri, məktəb tikintisi, xəstəxanalar, idman obyektləri. Yəni bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır. Hər bir şəhərdə müasir xəstəxana fəaliyyət göstərir və bütün bunlar, əlbəttə ki, həm böyük vəsait, həm də gündəlik diqqət tələb edir. Yenə də deyirəm, biz bu məsələləri dövlət xətti ilə, dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası nəticəsində həll etmişik.

Qaldı ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapsın, burada da əsas prinsip sosial ədalət prinsipidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək. Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkinbiçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir.



Ancaq mən onu da bilirəm ki, yerlərdəki bəzi məmurlar məcbur olub o qanunsuz hərəkətləri icra ediblər. Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq, eyni zamanda o da həqiqətdir ki, bəzi hallarda bax bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək.

Bölgələrdə, əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Azərbaycanda, bütövlükdə, məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda yerli istehsalı da gücləndirir. Kənd təsərrüfatı və turizmlə bağlı son müddət ərzində dövlət xətti ilə bir çox önəmli addımlar atılmışdır. Bunu daha da genişləndirmək lazımdır. Xüsusilə turizm üçün cəlbedici olan bölgələrdə bu, iqtisadiyyatın, bölgə iqtisadiyyatının kənd təsərrüfatı ilə birlikdə əsas amilini təşkil etməlidir.

Bölgələrdəki ekoloji tarazlıq mütləq qorunmalıdır, ətraf mühitə böyük diqqət göstərilməlidir. Bizim bölgələrimizdə prinsip etibarilə ekologiya ilə bağlı ciddi problemlər yoxdur. Əsas problemlər Bakı şəhərində idi ki, biz bunu uğurla həll edirik. Bakının yeni mənzərəsi bunun əyani sübutudur. Vaxtilə burada ekoloji fəlakət hökm sürürdü. Həm Bakı, həm Sumqayıt ekoloji cəhətdən ən çirklənmiş şəhərlər hesab olunurdu. Bu gün isə bu belə deyil. Bu gün Bakı, Sumqayıt parklar şəhərləridir. Biz köhnəlmiş müəssisələri köçürdük, neftlə çirklənmiş yerləri abadlaşdırdıq, rekultivasiya etdik, parklar saldıq. Qara şəhəri Ağ şəhərə çevirdik. Bölgələrdə isə, əlbəttə ki, ekoloji tarazlığın təmin edilməsi üçün, necə deyərlər, başqa üsullar var. Ona görə burada qanunsuz fəaliyyət daha çox ekoloji ziyan vurur, nəinki neft-qaz sənayesi. Ona görə qanunsuz fəaliyyəti məhdudlaşdırmaq, aradan qaldırmaq üçün mənim tərəfimdən müvafiq göstərişlər verildi, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ki, burada çayların məcralarının dəyişdirilməsi, tikinti üçün lazım olan qanunsuz malların işlənməsi, istehsalı – bütün bunlar tənzimlənməlidir və qanunsuz fəaliyyətə qətiyyən yol verilməməlidir.

Bir sözlə, Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir. Yenə də deyirəm, son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar. İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada – kəndlərdə insanlarla təmasda olmaq. Yəni mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir. Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız. Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız. Sizə uğurlar arzulayıram. Sağ olun.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi **Ceyhun Cəlilov**: – Möhtərəm cənab Prezident, ilk öncə bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Respublikasının son illərdə bütün regionlarının, eyni zamanda Naxçıvan Muxtar Respublikasının inkişafında xüsusi mərhələ var. Bu Sizin xüsusi diqqət və qayğınızın nəticəsidir. Sizi əmin etmək istəyirik və söz veririk ki, bundan sonrakı fəaliyyətimizdə Sizin etimadı doğrultmaq məqsədilə verdiyiniz bütün tapşırıq və göstərişlərinizi vaxtında layiqincə yerinə yetirib bu tapşırıqların icrasını təmin edəcəyik.

**Prezident İlham Əliyev**: – Sağ ol.

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## F.V.Nəcəflinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## Prezident Administrasiyasının rəhbəri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini ictimaiyyətə təqdim edib









Noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Ceyhun Ramiz oğlu Cəlilovu muxtar respublikanın ictimaiyyətinə təqdim edib.

Tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Təqdimat mərasimində çıxış edən Samir Nuriyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və mədəni inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır.

Ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində də mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən Prezident Administrasiyasının rəhbəri “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul edildiyini, davamlı iqtisadi və sosial artıma nail olmaqla muxtar respublikanın inkişafının sürətləndirilməsinin və ölkə iqtisadiyyatına tam inteqrasiyasının əsas hədəf olduğunu qeyd edib.

Bildirilib ki, Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planına uyğun olaraq əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatının, turizmin, infrastruktur təminatının, sosial sferanın, insan kapitalının və digər sahələrin inkişafı ilə bağlı qaşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmalı və bütün qüvvələr səfərbər edilməlidir.

Azərbaycan Prezidentinin noyabrın 12-də yeni təyinatlarla əlaqədar qəbulda səsləndirdiyi fikirlərə toxunan Prezident Administrasiyasının rəhbəri dövlətimizin başçısının xalqa xidməti, təvazökarlığı, vəzifə borcuna məsuliyyətli yanaşmanı əsas iş prinsipləri hesab etdiyini və hər bir məmurun öz fəaliyyətində bu prinsipləri rəhbər tutmalı olduğunu deyib.

Samir Nuriyev Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrini muxtar respublikanın yeni rəhbərliyinə çatdıraraq dövlətimizin başçısının göstərdiyi etimadın doğruldulacağına ümid etdiyini bildirib.

Ceyhun Cəlilov yüksək etimada görə dövlətimizin başçısına dərin təşəkkürünü bildirib və göstərilmiş etimadı doğruldacağını qeyd edib.

## Ali Məclisin 2025-ci il payız sessiyasının növbəti iclası keçirilib





Noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçirilib.

İclasın gündəliyinə Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi məsələsi daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 12 noyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib. Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin olunduğundan o, Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməlidir.

“Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Sonra qərar layihəsi səsə qoyularaq qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Ceyhun Cəlilova Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin olunması münasibətilə təbriklərini çatdırıb, fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 12 noyabr 2025-ci il*

# 200 illik ədalətsizliyə son qoyan LİDER



## və ya müzəffər xalqa yaraşan tarixi zəfər

***A**zərbaycan xalqı 200 ilə yaxın müddətdə müxtəlif xarici siyasi dairələrin ideoloji, mənəvi, hərbi təhdidlərinin, daxildən şəxsi maraqların əsas hədəfinə çevrilərək torpaqlarını qarış-qarış itirirdi. "Böyük Ermənistan" yaratmaq amalı ilə qəbul olunan bu ədalətsiz hökmə, nəhayət ki, 1990-cı illərin əvvəllərində xitam verildi, ölkəni əbədi uçuruma sürükləyən daxili, xarici təxribatların qarşısı alındı. Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi, qətiyyəti sayəsində ölkəmizdə siyasət xalqın milli mənafeyinə – dövlətçiliyin möhkəmləndirilməsi, respublikanın inkişafı və itirilən ərazilərin yenidən geri qaytarılmasına yönəldi. Azərbaycançılıq ideologiyası üzərində gənclərlə aparılan ideoloji iş, nəhəng layihələrlə beynəlxalq nəqliyyat marşrutlarına, ticarət xəttinə qoşulmaqla gücləndirilən iqtisadiyyat və bunların müqabilində reallaşdırılan ordu quruculuğu tədbirləri sayəsində hərbi qüdrətin artırılması ilə Azərbaycan hərtərəfli müstəqillik əldə etdi, regionda söz, nüfuz sahibinə çevrildi.*

Ulu Öndər yolunun ən böyük təntənəsi isə məhz 2020-ci ilin 44 günündə yaşandı. Sentyabrın 27-də Cəbrayıl, Füzuli istiqamətində başlanan zəfər yürüşümüz noyabrın 8-də Şuşada tarixi qələbə ilə taclandırıldı. Noyabrın 10-da kapitulyasiya aktına qol çəkməklə Ermənistan nəinki öz biabırçı məğlubiyyətini, eyni zamanda onu dəstəkləyən havadarlarının həm siyasi, həm də hərb meydanında Cənubi Qafqazın liderinə uduzduğunu rəsmi şəkildə etiraf etmiş oldu. Bəli, bütün təzyiqlərə və haqsız müdaxilələrə baxmayaraq, Azərbaycan 30 ildir kağız üzərində qalan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin praktiki icrasını özü təmin etdi. Heç kimdən asılı, heç kimə boyunduruq olmadan. Beləliklə, Müzəffər Ali Baş Komandan qüdrətli ordusu ilə 200 illik tarixi ədalətsizliyə son qoymaqla Ulu Öndərin vəsiyyətini yerinə yetirdi, tarixi, əzəli torpaqlarımızı azadlığına qovuşdurdu. Dövlət başçısının 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində dediyi kimi: ***"Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"*** Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə tarixi zəfərimiz hüquqi cəhətdən də əbədiləşdirildi, Şuşa şəhərinin işğaldan azad edilməsinin qələbəmizdəki müstəsna rolu nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə qalib ordunun Müzəffər Ali Baş Komandanı Şuşa şəhərində üçrəngli bayrağımızı əbədi yüksəkliyə ucaltdı.

Tarixə qızıl hərflərlə yazılan 2020-ci ilin 44 gününə aparan yol, Böyük Qələbəni şərtləndirən amillər kifayət qədərdir. Ən həlledici məqam, şübhəsiz ki, dövlət başçısının rəhbərliyi ilə güclü, nizami hərbi birləşmələrin formalaşdırılması istiqamətində reallaşdırılan ordu quruculuğu siyasətidir. Bu xüsusda müdafiə sənayesinin inkişafı, ən yeni texnika və texnologiyalarla təminatla yanaşı, milli kadr potensialının artırılması, döyüş hazırlığının yüksəldilməsi də əsas prioritet məsələ kimi diqqət çəkir. Çünki Qalib Liderin də dediyi kimi, nə qədər güclü texnika, texnologiya olsa da, bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. O sinəsini önə verərək döyüşür, o Vətən uğrunda gözünü qırpmadan şəhidlik şərbətini içir. Bu mənada, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin milli ideologiya, Azərbaycançılıq siyasətinin əsas təntənəsi kimi, 44 gündə özünü ən bariz şəkildə göstərdi. Misilsiz qələbədə XXI əsrin gənclərinin rolu mühüm, həlledici oldu. Prezident İlham Əliyev çıxışlarının birində bu məqama xüsusi toxunaraq deyib: ***"Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".*** Bəli, vətənpərvər ruhda yetişən qətiyyətli Azərbaycan əsgər və zabiti 44 gün ərzində bir addım belə geri çəkilmədi, ancaq irəli, irəli sədaları ucaldı Vətən torpaqlarında. Düşmənin keçilməz sandığı "Ohanyan" səddini yarıb keçən möhkəm iradəli oğullarımız dağlar aşıb, sıldırım qayalardan dırmanaraq Şuşa qalasına qalxdılar, mənfur düşməni əlbəyaxa döyüşdə məhv edib tarix kitablarından heç zaman silinməyəcək şücaətlik dastanı yazdılar. Bu qəhrəmanlıq salnaməsində ölkəmizin bütün bölgələrinin o cümlədən Naxçıvanın mərd oğullarının da əvəzsiz, danılmaz payı vardır.

Böyük Qələbəni yaxınlaşdıran ən vacib amillərdən biri də, təbii ki, "dəmir yumruq" ətrafında sıx birləşən xalqımızın həmrəyliyi, birliyi oldu. Sentyabrın 27-dən etibarən peşəsindən, mövqeyindən asılı olmayaraq, böyükdən-kiçiyə hər bir azərbaycanlının ürəyi cəbhə ilə döyünür, hər kəs məğrur oğullar üçün, zəfər naminə əlindən gələni əsirgəmirdi. Müzəffər Ali Baş Komandan həm cəbhədə gedən döyüşləri koordinasiya edir, xalqımıza zəfər müjdələri verir, həm də xarici jurnalistlərin suallarına müfəssəl şəkildə aydınlıq gətirir, xüsusən də apardığımız ədalətli müharibəyə düşmən mövqeyindən yanaşan media nümayəndələrini, Qərb siyasi dairələrini tutarlı cavablarla yerinə oturdurdu. 44 gündə Prezident İlham Əliyev 11 ölkənin 26 KİV-nə müsahibələr verdi ki, bu müsahibələrdə beynəlxalq hüququn prinsipləri, tarixi həqiqətlər və siyasi reallıqlar öz əksini tapdı.

Vətən müharibəsi ilə Azərbaycan təkcə Ermənistana qarşı əks-hücum əməliyyatı keçirmir, həm də xalqımıza yönələn siyasi, iqtisadi, sosial, mənəvi hücumlara qarşı da döyüşürdü, mübarizə aparırdı. "Bir ana olaraq mənim üçün çox çətindir. Evimin tək oğlu idi. Vətən sağ olsun, oğlum Vətən yolunda şəhid oldu", "Az, amma qürurlu və mərd yaşadı. 10 oğlum olsa, onunu da Vətənə qurban verərdim. Təki, Vətən sağ olsun". Övladları Vətən yolunda canından keçən anaların dilindən səslənən onlarla belə ifadələr xalqımızın mübarizə əzminin necə əyilməz, birliyinin, həmrəyliyinin sarsılmaz olduğunu, hər bir azərbaycanlı üçün Vətən torpağının həyatda hər şeydən, candan belə üstün tutulduğunu bütün dünyaya sübut etdi.

Vətən müharibəsində qazanılan tarixi zəfərin böyüklüyü həm də ondadır ki, bu sayədə Ağdam, Kəlbəcər və Laçının azadlığı bir güllə atılmadan, qan tökülmədən siyasi yolla həllini tapdı. Ölkə başçısının siyasi iradəsi ilə üçtərəfli bəyanata salınan müddəalar öncə atəşkəsin təmininə, daha sonra isə mərhələli şəkildə ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası üçün də zəmin yaratdı. 2023-cü il sentyabrın 19-20-də Ermənistana növbəti ədalət dərsi keçən Azərbaycan qalib ölkə olmaqla yanaşı, suveren dövlət kimi də öz hüququnu özü təmin etdi. Zəfərin 5-ci ildönümü ərəfəsində – cari il avqustun 8-də Prezident İlham Əliyev Vaşinqtonda əldə olunan razılaşmalarla müharibə meydanında olduğu kimi, sülh masasından da qalibiyyətlə ayrıldı. Və qətiyyətli liderin rəhbərliyi ilə artıq Cənubi Qafqazda ədalətli, davamlı sülh və əməkdaşlıq mühiti formalaşmaqdadır.

Misilsiz qələbədən ötən dövrdə Azərbaycan dövləti işğaldan azad olunan torpaqlarımıza Böyük Qayıdış siyasətini uğurla həyata keçirir, Qarabağ torpağının hər qarışına həyat qayıdır, soydaşlarımız öz yurdlarına geri dönür, bayram tonqalları qalanır, təhsil, səhiyyə, mədəniyyət sahələri dirçəldilir, xalqımızın ən qiymətli sərvətləri olan milli mənəvi dəyərlərimiz, tarixi abidələrimiz bərpa olunur. Zəngilanda, Füzulidə, Laçında, Şuşada, Xocalıda, Xankəndidə dalğalanan, müstəqilliyimizin, ərazi bütövlüyümüzün rəmzi sayılan üçrəngli bayrağımız dostumuza fəxarət, düşmənimizə gözdağı verir. Zəfərimiz bütün dünya ictimaiyyəti tərəfindən rəğbət qazanıb, xalqımız qətiyyətli liderin rəhbərliyi ilə sübut edib ki, o öz torpağına bağlıdır, andına sadiqdir, iradəlidi, güclüdür. Prezident İlham Əliyevin cari il oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə dediyi kimi: ***"Düz beş il bundan əvvəl bu ərazi işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq. Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. 8 Noyabr – Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb. Azərbaycan xalqı mərd xalqdır, qəhrəman xalqdır, iradəli xalqdır, öz torpağına bağlı olan xalqdır. Biz sübut etdik ki, işğalla barışmaq fikrində deyildik, halbuki bunu dəfələrlə bəyan etmişdik. Döyüş meydanında 300-dən çox şəhər, qəsəbə, kənd azad edildi və Ermənistan kapitulyasiya aktına imza ataraq təslim olmağa məcbur oldu".*** Qələbən əbədi, zəfərin mübarək olsun, Azərbaycan!




**Nail ƏSGƏROV**

# Əzəli torpaqlara əbədi qayıdış

Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra işğaldan azad olunmuş torpaqlarda hərtərəfli yenidənqurmanın, bərpanın həyata keçirilməsi və soydaşlarımızın etibarlı qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet məqsədlərindən hesab olunur. Bu baxımdan, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə qəbul olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" xüsusi əhəmiyyət daşıyır. Bundan başqa, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək 5 milli prioritetindən biri kimi də müəyyən olunub ki, bu da dövlət siyasətində bu istiqamətdə görülən işlərə necə böyük diqqət göstərildiyini, önəm verildiyini təsdiqləyir. Ötən 5 ilə yaxın müddətdə respublikamızın heç bir beynəlxalq maliyyə qurumundan dəstək almadan Qarabağ və Şərqi Zəngəzurda uğurlu infrastruktur quruculuğu prosesini reallaşdırması, soydaşlarımız üçün yaşayış, iş, istirahət, sosial xidmət imkanlarının yaradılması sübut edir ki, Azərbaycan dövlətinin diplomatiyası, siyasi iradəsi dönməzdir, qətidir, alternativsizdir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik... Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik. Bununla paralel olaraq, sosial məsələləri həll edirik və edəcəyik, heç kimin bunda şübhəsi olmasın".***

Böyük Qayıdışa dair birinci Dövlət Proqramının unikallığı onun hərtərəfli inkişafa, çoxcəhətli bərpa və quruculuğa əsaslanmasıdır. Başqa sözlə, dövlətimiz təkcə soydaşlarımız üçün ev, mənzil inşa etdirmir, onların məşğulluğunu təmin edir, uşaqların, yeniyetmələrin gələcəyi naminə bağçalar, məktəblər ucaldır, sağlam həyat naminə müasir səhiyyə, idman infrastrukturu qurur. Bölgədə iqtisadiyyat dirçəldilir, qeyri-neft sektoru, kənd təsərrüfatı, turizm potensialı inkişaf etdirilir, tarixi-mədəni abidələr bərpa olunur, milli-mənəvi dəyərlər yenidən xalqın həyatının əvəzolunmaz parçasına çevrilir.



## 30-a yaxın yaşayış məntəqəsinə, o cümlədən 6 şəhərə geri qayıdış təmin olunub

2022-ci ilin yayında Zəngilan rayonunun Ağalı kənd sakinlərinin doğma yurda qayıdışı ilə başlanan köç prosesi hazırda dinamik şəkildə davam edir, Böyük Qayıdışın sədaları Şuşada, Laçında, Füzulidə, Cəbrayılda, Ağdamda, Kəlbəcərdə, Xocalıda, Xocavənddə duyulur. Dövlət Proqramına uyğun, ümumilikdə, 2022-2024-cü illərdə yenidən qurulan 10 kənd və şəhərdə keçmiş məcburi köçkünlərin məskunlaşması təmin olunub. Bu ilin əvvəlinə kimi, Laçın, Füzuli, Şuşa, Xocalı və Cəbrayıl şəhərləri, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux, Sus, Xocalı rayonunun Ballıca kəndləri öz soydaşlarını qoynuna alıb. 2025-ci ildə Ağdərə rayonunun Həsənriz və Suqovuşan, Ağdam rayonunun Sarıcalı və Kəngərli, eləcə də Xocalının, Xocavəndin, Cəbrayılın, Zəngilanın kəndlərinə soydaşlarımızın qayıdışı uğurla icra edilməkdədir. Ümumilikdə, indiyədək 30-a yaxın yaşayış məntəqəsinə, o cümlədən 6 şəhərə keçmiş məcburi köçkünlər geri qayıdıb.

Azad edilmiş ərazilərdə 12 şəhərin Baş planı hazırlanıb ki, onlardan 8-i artıq müasir şəhərsalma və ekoloji prinsiplərlə tamamlanıb, 90 kənd və qəsəbə planlaşdırılıb. Hazırda azad edilmiş ərazilərdə 60 mindən çox insan yaşayır, işləyir və təhsil alır. Son 4 ildə üç beynəlxalq hava limanı, yol və avtomagistral, yeni dəmir yolu infrastrukturu, yaşayış binaları, səhiyyə müəssisələri və təhsil ocaqları inşa olunub. Görülən bütün bu işlər beynəlxalq təcrübəli şəhərsalma mütəxəssislərinin iştirakı ilə həyata keçirilir və qlobal qabaqcıl təcrübə ilə uyğunluq təmin olunur. Bu faktlar Azərbaycanın işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi və soydaşlarımızın məskunlaşması sahəsində sürətli irəliləyişini, "Böyük Qayıdış" proqramının uğurla həyata keçirildiyini göstərir.



## Müasir çağırışlara doğru, tarixi-mədəni irsə qayıdış

Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilər üzrə məskunlaşma siyasətinin özünəməxsusluğu həm də onun müasir çağırışlara, texnoloji yeniliklərə əsaslanması ilə səciyyələnir. Bu baxımdan, Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi, bu ərazilərdə "yaşıl iqtisadiyyata" keçidlə bağlı irəli sürdüyü konsepsiya mühüm yol xəritəsidir. Bu konsepsiyanın icrası nəticəsində, ümumilikdə, 4 il ərzində işğaldan azad olunan torpaqlarda 270 MVt gücündə 32 su elektrik stansiyası istismara buraxılıb və 2025-ci ildə daha 11 su elektrik stansiyasının açılışı plan üzrə gedir.

Qarabağ və Şərqi Zəngəzurda qeyri-neft sektorunun inkişafı, "yaşıl iqtisadiyyat"a keçid də ötən müddətdə əsas hədəflərdən olub. Zəngilan rayonunda Ağalı kəndinin "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında inşası ilə start götürən "yaşıl iqtisadiyyat"a keçid prosesi daha sonra digər kəndləri, şəhərləri, o cümlədən Laçını, Ağdamı, Xocalını, Füzulini, Şuşanı, Xankəndini də əhatə edib.

"Yaşıl iqtisadiyyat"a uğurlu keçidi təmin edən əsas istiqamətlərdən biri də sənaye müəssisələrinin yaradılması, "yaşıl texnologiyalar"ın istehsalata tətbiqi və beləliklə də, qatqısız, ekoloji cəhətdən saf, təmiz məhsul istehsalına nail olunmasıdır. Bu baxımdan, innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi məqsədlərinə xidmət edən sənaye parkları modelinin əhəmiyyəti kifayət qədər böyükdür. Hazırda ölkə üzrə 9 rayonu əhatə edən "Araz Vadisi İqtisadi Zonası" Sənaye parkları fəaliyyət göstərir. Onlardan ikisi yerləşdiyi coğrafiya, nəqliyyat-logistika imkanları baxımından əlverişli olan Ağdam və Cəbrayıl rayonlarında yaradılıb. Əsas məqsəd qeyd etdiyimiz kimi, işğaldan azad olunan ərazilərdə iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sayılan sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafına təkan verməkdədir. Əminliklə vurğulamaq olar ki, sənaye parklarının fəaliyyəti gələcəkdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadəni təmin etməklə regional iqtisadi-ticarət əlaqələrini genişləndirəcək.

"Böyük Qayıdış" proqramının icrasına dair digər mühüm istiqamət isə tarixi-mədəni abidələrimizin və milli dəyərlərimizin yenidən bərpasının təmin olunmasıdır. Xatırlatmaq lazımdır ki, 1990-cı illərdə Qarabağ və Şərqi Zəngəzurda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri vardı. Təəssüf ki, 30 ilə yaxın müddətdə bu abidələrimiz ya dağıdılaraq bərbad vəziyyətə salınıb, ya da tamamilə məhv edilib. Ermənilər Qarabağ ərazisində olan 67 məsciddən 63-nü yerlə-yeksan ediblər. Qalan 4 məsciddən 3-nə isə ciddi ziyan vurulub. Yeganə 1 məscid, Qarabağın incisi Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidində isə bəzi dəyişiklik edərək bu abidənin Azərbaycana aid olmadığını sübut etməyə çalışsalar da, cəhdlər uğursuz olub. Azərbaycanın 2020-ci ildəki tarixi zəfəri ermənilərin əzəli torpaqlarımızla bağlı cəfəng ideyalarının üstündən birdəfəlik xətt çəkib. Ötən dövrdə tarixi abidələrin inventarlaşdırılması həyata keçirilib və bərpasına başlanılıb. Heydər Əliyev Fondu dini və tarixi abidələrin restavrasiyasında, tikinti-təmir işlərində xüsusi rol oynayır, fondun xətti ilə bir sıra abidələr, o cümlədən Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi, Saatlı məscidi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa, Ağdam Cümə məscidləri bərpa olunub. Eyni zamanda yeni məscidlər tikilərək istifadəyə verilib, Ağdam Muğam Mərkəzinin yenidənqurma və bərpası ilə köklü ənənələrə malik muğam məktəbi öz tarixi yerində fəaliyyət göstərməyə başlayıb. Görülən mədəni-kütləvi tədbirlər çərçivəsində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günlərinin təşkili milli-mənəvi dəyərlərimizin bərpasına xidmət baxımından məxsusi əhəmiyyət daşıyır. Bu və digər tədbirlər bölgəyə xas milli dəyərlərin yaşadılmasına geniş imkanlar açmaqla dünyaya "Tarixinə, mədəniyyətinə əsl sahiblik belə olur" mesajını çox aydın və dolğun şəkildə ötürür. Tarixi-mədəni irsimizə göstərilən böyük diqqətin nəticəsidir ki, zəfər rəmzimiz sayılan Şuşa 2023-cü ildə Türk dünyasının, ötən il isə İslam dünyasının mədəniyyət paytaxtı kimi, mühüm missiyalarını uğurla yerinə yetirib.

Beş ilin mənzərəsi göstərir ki, Azərbaycan dövləti işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdış siyasətini uğurla həyata keçirir, soydaşlarımız öz yurdlarına əminliklə geri dönür, tarixi-mədəni irsimiz uğurla bərpa olunur. Bu qayıdış misilsiz qayıdışdır. Bu qayıdış əzəli torpaqlara əbədi qayıdışdır. Bu bərpa ədalətin təntənəsidir, haqqın qələbəsidir. Prezident İlham Əliyevin bu il sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşündə dediyi kimi: ***"Sizi ürəkdən təbrik edirəm, doğma Qarabağ torpağına qayıtmısınız. Əminəm ki, bundan sonra həyatınızda ancaq sevincli günlər olacaq. O əzab-əziyyət, ədalətsizlik, haqsızlıq arxada qaldı. Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Evlər gözəl təmir olunur, bütün infrastruktur – yollar, təbii qaz və elektrik enerjisi, su. Ən önəmlisi isə siz doğma Qarabağ diyarında artıq əbədi yaşayacaqsınız – siz və sizin davamçılarınız. Bu, ədalətin təntənəsidir. Biz ədaləti bərpa etdik, ilk növbədə, öz haqqımızı bərpa etdik, erməni işğalına son qoyduq. Bunu mərhələli yollarla etdik".***

**"Şərq qapısı"**

# Azərbaycan elmində yeni səhifə açan innovativ çağırışlar və başlıca inkişaf prioritetləri



***Azərbaycan Milli Elmlər Akademiyasının 3 noyabr 2025-ci ildə baş tutan 80 illik yubiley tədbiri ölkə Prezidenti İlham Əliyevin dərinməzmunlu nitqi ilə yaddaşlara yazıldı. Burada iki nüans xüsusi diqqət çəkir: elm adamlarına verilən yüksək dəyər və qarşıya qoyulan yeni inkişaf prioritetləri.***

**Zeynəb QULİYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix elmləri doktoru*

17 mart 1945-ci ildə yaradılan bu elm məbədgahının qət etdiyi yolun əhəmiyyətini, əldə etdiyi elmi nəticələri yüksək qiymətləndirən ölkə başçısı onun cəmiyyətin inkişafında aparıcı rolunu xüsusi olaraq vurğulamışdır: ***"Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır".*** Akademiyanın fəaliyyətinin canlanması ötən əsrin 70-ci illərində başlamışdır. Bu dövrdə Ümummilli Lider Heydər Əliyevin qayğısı ilə yeni elmi-tədqiqat institutları yaradılmış, yüz minlərlə Azərbaycan gənci o vaxt sovet ittifaqının aparıcı ali məktəblərinə göndərilmiş, nəticə olaraq, ölkəmizin milli intellektual kadr potensialı gücləndirilmişdir. Qeyd etmək lazımdır ki, bu proses özünü müxtəlif elm sahələrində, o cümlədən tarix elmlərinin tədqiqində daha bariz şəkildə göstərmişdir. Uzun müddət ölkəmizdəki arxeoloji abidələrin araşdırılmasında həlledici rola malik olan İ.Meşşaninov, A.Miller, A.Spitsın, T.Passek, B.Latının və digər əcnəbi tədqiqatçıların nəzarətində araşdırılan abidələrimizin tədqiqində tədricən S.Qaziyev, İ.Cəfərzadə, M.Hüseynov, İ.Nərimanov, O.Həbibullayev timsalında onlarla milli arxeoloq kadrların imzalarına rast gəlinməyə başlanmışdır. Bu sahədə Azərbaycan gənclərinin müxtəlif respublika və şəhərlərə ezam olunması da mühüm rol oynayırdı. Ölkə başçısının qeyd etdiyi kimi, Azərbaycanın ağır sosial-iqtisadi problemlərlə üzləşdiyi dövrdə belə akademiyanın qorunmasına diqqət göstərilmiş, alimlərin fəaliyyəti üçün hər zaman vəsait ayrılmışdır. Elmə göstərilən dövlət qayğısının davam etdirilməsinin nəticəsidir ki, bu gün AMEA-nın maddi-texniki bazası möhkəmləndirilmiş, akademiya şəhərciyində yerləşən binaların təmiri aparılmış, yeni elmi kitabxana, Milli Ensiklopediya üçün yeni bina istifadəyə verilmiş, elmi-tədqiqat institutları təmir edilərək müasir avadanlıqlarla təchiz olunmuş, 2009-cu ildə isə Azərbaycan alimlərinə qrantlar yolu ilə maddi dəstək vermək üçün Elm fondu yaradılmış, eyni zamanda elmin inkişafı üzrə Milli Strategiya, "Elm haqqında" Dövlət Proqramı qəbul edilmişdir. Bu addımlar akademiyanın qorunub saxlanmasına və inkişafına göstərilən dövlət qayğısının, əsası Ümummilli Lider tərəfindən qoyulan elmin təkmilləşdirilməsi və himayə edilməsi siyasətinin cəbhədə Müzəffər Ali Baş Komandan olaraq danışıqlar masasında isə mükəmməl siyasətçi olaraq hər zaman qalib olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin bariz göstəricilərindəndir.

Bu gün ərazi bütövlüyünü təmin etmiş Azərbaycan sürətlə inkişaf edir, dünyaya inteqrasiya olunur. Siyasi, hərbi, diplomatik sahələrdə əldə edilən inkişafın elmdə də əks olunmasının vacibliyi artıq zamanın tələbinə çevrilmişdir. Prezident tərəfindən elm adamları qarşısında qoyulan başlıca inkişaf istiqamətləri məhz bu zərurətdən irəli gələn vəzifələri müəyyənləşdirməklə Azərbaycan elminin qlobal səviyyədə nüfuzunu artıran yeni üfüqlər açır.

Yeni innovativ çağırışlar bütün elm sahələrini əhatə etməklə onların inkişaf prioritetlərini müəyyənləşdirir. Başlıca prioritetlərə diqqətli nəzər salarkən müxtəlif elm sahələrini vahid orqanizm şəklində birləşdirən və bir-birini tamamlayan beş başlıca istiqamət ön plana çıxır: 1. Texnoloji inkişaf, 2. Fundamental elmləri birləşdirən nəzəriyyənin istehsalata tətbiqini hədəfləyən hərbi-sənaye üzrə inkişaf, 3. Geoloji və təbiət elmlərini birləşdirən bərpa olunan enerji layihələri üzrə, 4. İctimai elmləri əhatə edən siyasi-tarixi-nəzəriyyə, 5. Humanitar elmləri birləşdirən mənəvi dəyərlər və dilimizin saflığının qorunması üzrə təkmilləşdirmə istiqamətləri.

Birinci istiqamətlə bağlı irəli sürülən prioritetlərin ilk sırasında yeni texnologiyaların tətbiqi, təkmilləşdirilməsi, süni intellekt, rəqəmsallaşmanın intensivləşdirilməsi, xüsusilə kibertəhlükəsizliklə bağlı proqram layihələrin həyata keçirilməsi kimi vacib məsələlər yer alır. Onlar ölkəmizin, onun hər bir vətəndaşının, intellektual potensialının, bütövlükdə, gələcəyimizin innovativ-informasiya təhlükəsizliyini təmin edir. Onun əhəmiyyətini qısa bir müqayisə ilə daha aydın görmək olar. I Qarabağ müharibəsi dövründə torpaqlarımızın itirilməsi, suverenlik hüquqlarımızın erməni işğalçıları tərəfindən ağır şəkildə pozulmasına dünyanın biganə qalmasının əsasında məhz informasiya müharibəsindəki məğlubiyyət dayanırdı.

İkinci istiqamət nəzəriyyədən istehsalata keçidin sürətləndirilməsi, texnoloji-intellektual təhlükəsizliyin fiziki təminatı olan hərbi-sənaye sahəsinə fundamental elmlərin verəcəyi töhfələrin əsas prioritetlərini müəyyənləşdirir. Bu gün Azərbaycanda hərbi sənayenin inkişaf etməsinin, hərbi təyinatlı məhsulların istehsal edilməsinin, pilotsuz uçuş aparatlarının istehsalına başlanmasının əhəmiyyətini vurğulayan ölkə başçısı Azərbaycan alimlərini bu istiqamətə dəvət etməklə onların intellektual bacarıqlarını istehsalata cəlb edən böyük fəaliyyət meydanı vermişdir.

Üçüncü istiqamət ölkənin iqtisadi inkişafına elmi töhfələrin cəlb edilməsi ilə bağlıdır. Azərbaycanın müasir inkişaf səviyyəsində qeyri-neft sektorunun təkanverici qüvvəsi, valyuta ehtiyatlarımızın ildən-ilə artması, azad edilmiş ərazilərimizin bərpasına qoyulan investisiyaların artmasının əhəmiyyəti diqqətə çatdırılmışdır. Qeyd olunmuşdur ki, güclü iqtisadiyyat olmadan heç bir sahədə uğurlar əldə etmək mümkün olmazdı. Lakin müasir iqtisadi inkişaf yeni sahələrin, xüsusilə bərpa olunan enerji layihələrinin inkişafını zəruri edir. Bununla bağlı Qarabağda, Şərqi Zəngəzurda aparılan geoloji işlərə alimlərin dəvət edilməsi təbii resurslarımızın geniş miqyasda üzə çıxarılmasına, həmçinin yeni iş yerlərinin açılmasına, insanların rifahının daha yüksək səviyyəyə çatmasına rəvac verəcəkdir.

Dördüncü və beşinci istiqamətlər daha çox ictimai və humanitar elm sahələri qarşısında duran vəzifələri əhatə edir. Bu vəzifələr içərisində müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərin yazılması başlıca prioritetlərdəndir. Azərbaycan Respublikasının Prezidenti bu məsələnin vacibliyini vurğulayaraq qeyd etmişdir: ***"Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var".*** Xüsusilə Qərbi Azərbaycanda tarixi yer adlarımızın dəyişdirilməsinə diqqətçəkən ölkə başçısı toponimlərimizi real şəkildə əks etdirən tarixi xəritələrin dərc edilməsinin, zəfər tariximizlə bağlı elmi əsərlərin yazılmasının vacibliyinə diqqət çəkmişdir. Yeri gəlmişkən, qeyd etməliyik ki, arxeoloji abidələrdə də erməni terroru zaman-zaman özünü göstərmişdir. Qərbi Azərbaycandakı Mahaltəpənin "Arataşen", Xatunarxın "Aknaşen", Təzəkənd arxeoloji mədəniyyətinin "Karmirberd" olaraq dəyişdirilməsi ermənilərin "toponim oğurluğu"nun əyani sübutlarıdır. Təbii ki, Azərbaycan alimləri tərəfindən bu abidələrlə bağlı yazılan elmi əsərlərdə onlar tarixi adları ilə təqdim olunur. Lakin belə əsərlərin sayının artması tarixi, arxeoloji, memarlıq abidələrimizin bu torpaqların aborigenləri olan əcdadlarımız tərəfindən yaradıldığını sübut etməklə yanaşı, onların timsalında milli-mənəvi, həmçinin tarixi-mədəni dəyərlərimizin beynəlxalq miqyasda tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Belə əsərlərin hazırlanmasında Azərbaycan dilinin saflığının qorunması məsələsi başlıca prioritetlərdən biri olaraq qarşıya qoyulmuşdur.

Beşinci istiqaməti təşkil edən ana dilimizin orijinallığının saxlanması məsələsi təkcə dilçi alimlərin deyil, bütövlükdə, Azərbaycan ictimaiyyətinin ürəyindən olan əsaslı məsələlərdəndir. Dilimizi xarici kəlmələrdən qorumağın vacibliyini vurğulayan ölkə Prezidenti bununla bağlı demişdir: ***"Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər".***

Azərbaycan elminin inkişaf tarixində yeni səhifənin ilk başlıqları kimi tarixə daxil olan bu innovativ çağırış və inkişaf prioritetləri elm adamlarına göstərilən böyük etimadın yeni üfüqlərini açmışdır. Ərazi bütövlüyümüzün və suverenliyimizin konstitusional təminatının yubiley ili olan və haqlı olaraq da Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan edilən 2025-ci il, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının yubiley ili və fəaliyyətini yuxarıda qeyd edilən prioritet istiqamətlərə yönəldərək əldə edəcəyi gələcək uğurların başlanğıc nöqtəsi olaraq elm tariximizə daxil olur.

*Naxçıvan Muxtar Respublikası ərazisində türk-İslam mədəniyyətinə aid olan abidələr – məscidlər, mədrəsələr, türbələr, imamzadələr, körpülər, karvansaralar, qalalar, hamamlar, mülki tikintilər, buxxanalar vardır.*

# Mədəniyyət abidələrimizə yeni nəfəs gətirilir

Bunlar arasında hamamlar Şərq xalqlarının həyatında önəmli rol oynamış, yuyunma, paklanma yeri olmaqla bərabər, həm də insanların görüş, söhbət, istirahət və müalicə yerinə çevrilmişdir. XVIII-XIX əsrlərdə Naxçıvan şəhərində də yerli sakinlər tərəfindən inşa olunmuş hamamlar az deyil. Həmin binaların xüsusi zövqlə, Naxçıvana xas olan memarlıq üslubunda inşa edilməsi şəhərin simasını gözəlləşdirmək məqsədi daşıyırdı.

Şəhərin mərkəzi küçələrinin birində, indiki "Təbriz" mehmanxanasının qarşısında, Dədə Qorqud meydanında yerləşən belə tikililərdən biri də XVIII əsrin ortalarında Şərq memarlığı üslubunda inşa olunmuş İsmayıl xan (İsmayıl ağa) hamamıdır. Ümumi sahəsi 526 kvadratmetrə çatan hamamın planı düzbucaqlı, bişmiş kərpiclə inşa edilmiş binanın daxildən soyunma zalı isə səkkizbucaqlı formadadır. Yuyunma salonuna iki keçid olub. Hamamlara məxsus əsas tikililərdən olan zalın mərkəzində çarhovuz inşa edilib ki, bu həm də estetik baxımdan binanın daxilinə xüsusi gözəllik verir. Sferik günbəzlə örtülmüş olan zalın tavanı 108 kvadratmetr sahəni əhatə edir. Yuxarı hissədə yerləşən kiçik bacalar günbəzlər üçün xarakterik idi. Həmin kiçik bacalar içərini işıqlandırır, eləcə də havalandırma rolunu oynayırdılar. Günbəzlər həm də suya çevrilmiş buxarın düzgün paylanmasına kömək edirdi. Belə olduğu halda günbəzli tikililərdə divarların səthi ilə axan su damcıları çimənlərə narahatlıq yaratmırdı. Hamamın su təchizatı kəhriz vasitəsilə ödənilmiş, həmin dövrə aid bir çox hamamlarda olduğu kimi, burada da otaqlara istilik yeraltı borular vasitəsilə verilmişdir.

Araşdırmalara görə, bu hamamda da girişdə, soyunma və yuyunma zalları arasında ensiz keçidlərin yerləşdirilməsi Naxçıvan hamamlarına xas olan əlamətlərdən biridir. Həmin alçaq və ensiz keçidlər, yuyunma zalının daxilində olan isti havanın soyunma zalına keçməsinin qarşısını alırdı. Hətta hamamın daxilində olan temperaturu müəyyən bir zaman daxilində saxlayır və qızmar yay aylarında isə isti havanın hamamın daxilinə keçməsinin qarşısını alırdı.

İsmayıl xan hamamının ən maraqlı memarlıq elementlərindən biri də onun baştağıdır. Bu, fasad kompozisiyasının önəmli elementlərindən biridir. Hamamın tikintisində bişmiş kərpicdən istifadə olunsa da, interyerinin bəzədilməsində kaşı və mərmər daşından istifadə edilib. Bir vaxt gələnləri həndəsi və nəbati naxışlı divar bəzəkləri ilə heyran edən hamamın daxili bəzəkləri, təəssüf ki, günümüzədək gəlib çatmamışdır.

Şəhərimizin mərkəzində keçmişlə bu günün vəhdətini yaşadan bu tikili sanki bir xəzinənin ləl-cəvahiratı kimi bərq vuraraq qiymətli keçmişimizdən bu günümüzə yadigar və gələcəyimizə daşınan bir mirasdır.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında yeni layihələr, habelə investisiya layihələri əksini tapıb. Həyata keçirilən tədbirlərin davamı olaraq XVIII əsr memarlıq abidəsi İsmayıl xan hamamı da bərpa ediləcək. Abidənin bərpası üçün layihə-smeta sənədlərinin hazırlanması məqsədilə elan olunmuş satınalma yekunlaşıb. Layihə-smeta sənədlərinin hazırlanması qalib şirkət olan "Azərbərpa Elmi-Tədqiqat Layihə İnstitutu" Məhdud Məsuliyyətli Cəmiyyətinə tapşırılıb.

Qeyd edək ki, tərəflər arasında imzalanmış müqaviləyə əsasən tarixi abidənin ətrafının abadlaşdırılması, topoqrafiya və geologiya işləri, interyer dizaynı və digər işlərin görülməsi nəzərdə tutulub.

Bununla bağlı Naxçıvan Dövlət Universitetinin əməkdaşı, memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova ilə həmsöhbət olduq. O bildirdi ki, 2006-2007-ci illərdə muxtar respublikadakı mövcud tarixi abidələrin araşdırılması ilə əlaqədar AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşları, Naxçıvan Dövlət Universitetinin memarlıq, tarix və digər aidiyyəti olan kafedra müəllimlərinin birgə iki il müddətində araşdırmaları olub. Həmin araşdırmalar zamanı 1662, sonradan isə 2002 abidə aşkar edilib ortaya çıxarılıb. Mövcud abidələrdə pasportlaşma işləri davam etdirilir. Bəzi abidələrdə konservasiya işləri aparılmalı, bəzilərində bərpa, bəzilərində isə cüzi təmir işləri həyata keçirilməlidir. Bərpa işləri aparılsa da, bu abidələrdə zaman-zaman təbii hadisələrlə, iqlimlə əlaqədar aşınmalar baş verir. Ona görə də müvafiq Dövlət Proqramında tarixi abidələrdə də bərpa işləri aparılması nəzərdə tutulub. Bu gün Böyük İpək Yolu, həmçinin Zəngəzur dəhlizinin açılması ilə əlaqədar muxtar respublikada böyük işlər görülür. Naxçıvan şəhərinin yenidən Baş planı hazırlanır. Təbii ki, bu işlərin keyfiyyətlə görülməsi üçün aidiyyəti qurumlar və mütəxəssislər cəlb olunub.

Bütün bunlar həm də abidələr diyarı olan qədim Naxçıvan torpağına dövlət başçısının böyük diqqət və qayğısının ifadəsidir.

**Aidə İBRAHİMOVA**
*NDU-nun Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*



# Vüqar Rəhimzadə: Məmur-vətəndaş münasibətlərinin sağlam əsaslar üzərində qurulması, bütövlükdə, dövlətin güclənməsinə xidmət edir



*"Dövlətimizin başçısı İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı gündən **"Neft kapitalını insan kapitalına çevirək!"** tezisini irəli sürəndə, təbii ki, burada əsas məqamların, çağırışların nədən ibarət olduğunu da açıqladı. İqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını təmin etmək üçün regionların malik olduqları potensialdan səmərəli istifadənin prioritetliyini bildirdi və bunu konkret Dövlət proqramlarının qəbulu və uğurlu icrası ilə təsdiqlədi. Dövlətimizin başçısı regional inkişaf proqramlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə yaxından tanış olmaq məqsədilə mütəmadi olaraq bölgələrə səfərlər etdi. Eyni zamanda hər bir il çərçivəsində mütəmadi olaraq Nazirlər Kabinetinin hesabat dövrü ilə əlaqədar müşavirəsini, həmçinin regionların sosial-iqtisadi inkişaf proqramlarının ildönümləri ilə bağlı yekun tədbirlər keçirərək qarşıya qoyulan vəzifələrin hansı səviyyədə yerinə yetirildiyinə dair hesabatlar dinlənildi.*

Prezident İlham Əliyev həmin tədbirlərdə Azərbaycanın bütün sahələrdə qazandığı uğurları faktlar əsasında, rəqəmlərə söykənərək ictimaiyyətə açıqladı. Dövlətimizin başçısı İlham Əliyev hələ "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda ***"İnsan amili, insan kapitalı. Mən hələ bunu 2003-cü ildə demişəm, biz neft kapitalını insan kapitalına çevirməliyik. Bunu deyəndə təkcə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmir. Söhbət ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır, dövlət qurumları tərəfindən normal rəftar edilməlidir, təhdid edilməməlidir, incidilməməlidir. Belə hallar var?! Var! Kim bunu edir?! Dövlət məmurları! Kim incidə bilər vətəndaşı?! Dövlət məmuru! Mən yenə də deyirəm, bütövlükdə, bölgələrdə icra nümayəndələrinin fəaliyyəti müsbətdir, ancaq belə hallar da vardır. Buna yol vermək olmaz. Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir. Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət!"*** fikirlərinin davamı olaraq bu çağırışı da etdi ki, hər bir dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir, insanlara qulluq etməlidir və təvazökar olmalıdır".

Bu fikirləri Milli Məclisin deputatı Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Milli Məclisin deputatı qeyd edib ki, Prezident İlham Əliyev noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən qeyd etdi ki, əfsuslar olsun, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru, nəticədə, məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar, əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Prezident İlham Əliyev yeni vəzifələrə təyin olunanlardan tələbinin bu olduğunu açıqladı. Bildirdi ki, sizin başlıca vəzifəniz xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir.

Vüqar Rəhimzadə vurğulayıb ki, dövlət başçısı İlham Əliyevin siyasətində vətəndaş məmnunluğunun təmin edilməsi bütün dövrlərdə prioritet məsələ kimi öndə dayanıb və dayanır. Məmur-vətəndaş münasibətləri dayanıqlı inkişafın təmin edilməsində əsas faktorlardan biri kimi önə çəkilir. Dövlətimizin başçısı İlham Əliyev ölkəmizin hər sahədə nümunəvi olması istəyini ortaya qoyur və bunun üçün zəruri addımlar atır, müvafiq qurumlara tapşırıqlarını verir. Hər sahə üzrə konkret Dövlət proqramlarının qəbulunda da məqsəd bu sənəddən irəli gələn vəzifələrin uğurlu icrası, Azərbaycanın hərtərəfli inkişafına töhfə verməkdir. Yeni mərhələnin əsas məqsədi, təbii ki, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir. Bunun üçün ölkənin malik olduğu iqtisadi potensial daha da gücləndirilməli, qeyri-neft sektorunun inkişafı sürətləndirilməli, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunmalı, yeni iş yerlərinin açılmasına şərait təmin edilməli, sahibkarlıq inkişaf etdirilməli, sosial xidmətlərin həcmi, keyfiyyəti və ünvanlılığı əhəmiyyətli dərəcədə artırılmalıdır. Ölkəmiz qeyd olunan istiqamətlərin hər biri üzrə uğurlu nəticələrə nail olub. Bölgələrimizdə əsas infrastruktur layihələri, demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bütün şəhərlərdə, kəndlərdə içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir. Ən əsası, şəffaflığın təmin olunması prioritet məsələ kimi öndə saxlanılır. Nəzərdə tutulan islahatların həyata keçirilməsi ölkədə dövlət qurumlarının nüfuzunu daha da artırır, dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan verir.

Dövlət başçısı İlham Əliyev yeni vəzifələrə təyin olunanları qəbul edərkən bir daha bu çağırışı etdi ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapmalıdır. Burada da əsas prinsip sosial ədalət prinsipidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb.

Milli Məclisin deputatı bildirib ki, atılan addımların, müəyyənləşdirilən hədəflərin əsasında Azərbaycanın bölgələrinin bu gün ən yüksək standartlara cavab verməsi çağırışı dayanır. Son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma, bütün bunlar görülən işlərin uğurlu nəticələridir. Dövlət başçısı İlham Əliyev məmurların qarşısında bir daha bu vəzifələri qoydu ki, insanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada – kəndlərdə insanlarla təmasda olmaq lazımdır: ***"Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir. Amma, əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız. Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız".***

Vüqar Rəhimzadə qeyd edib ki, atdığı hər addımı ilə 2003-cü ildə verdiyi ***"Mən hər bir vətəndaşın Prezidenti olacağam"*** vədini yüksək səviyyədə yerinə yetirdiyini təsdiqləyən Prezident İlham Əliyevin dövlət məmurlarından tələbi hər zaman bu olub ki, xalqın yanında olun, onların qayğıları ilə yaşayın, həlli istiqamətində ciddi səylər göstərin. Dövlət başçısı İlham Əliyev məmur-vətəndaş münasibətlərində, xalqla ünsiyyətdə öz şəxsi keyfiyyətləri və nümunəvi davranışı ilə ən mükəmməl örnək olmaqla yanaşı, haqlı olaraq dövlət idarəçiliyindəki hər kəsdən tələb edir: vətəndaşlarla münasibətdə şəffaflığın artırılması, etik qaydalara əməl edilməsi, onlara daha keyfiyyətli, rahat, müasir şəkildə xidmət göstərilməsi və vətəndaş məmnunluğunun təminatı əsasdır. Təbii ki, məmur-vətəndaş münasibətlərinin sağlam əsaslar üzərində qurulması, bütövlükdə, dövlətin güclənməsinə xidmət edir.

# *"Konstitusiya və Suverenlik: Milli Qurtuluşdan Zəfərə"* mövzusunda konfrans keçirilib



Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik: Milli Qurtuluşdan Zəfərə" mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub.

Konfransda Ümummilli Liderin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Konfransda "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev konfransda çıxış edərək qeyd edib ki, "Konstitusiya və Suverenlik İli"nin elan olunması, eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 30 illiyi və zəfərin 5 illiyinin qeyd edilməsi, dövlət müstəqilliyimizin hüquqi dayaqlarının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi irsi müasir Azərbaycan dövlətçiliyinin təməlini təşkil edir, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu dövlətçilik yeni inkişaf mərhələsinə yüksəlib.

Cabbar Musayev bildirib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan zəfər, ölkəmizin suverenliyini və konstitusion əsaslarını tam bərpa edib. Bu zəfər həm də Azərbaycan xalqının dövlətçilik ənənələrinin, milli birliyinin və suverenliyinin sarsılmazlığını nümayiş etdirib. Bu gün ölkəmizdə həyata keçirilən islahatlar, güclənən hüquqi dövlət prinsipləri və sosial-iqtisadi inkişaf istiqamətində atılan addımlar dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın dayanıqlı gələcəyini təmin edir.

Konfransda çıxış edən Naxçıvan Şəhər Məhkəməsinin sədri Gülnar Səfərəliyeva qeyd edib ki, Konstitusiya Azərbaycan xalqının müstəqillik iradəsini, suverenliyini və azadlıq əzmini əks etdirən ali hüquqi sənəddir. Zəfərlə möhkəmlənən bu suverenlik hüquqi dövlətin təməl prinsiplərinin gerçək həyatda tətbiqinə geniş imkanlar açıb. Diqqətə çatdırılıb ki, məhkəmə hakimiyyəti ədalətin bərqərar olunması, vətəndaşların hüquqlarının müdafiəsi və Konstitusiya prinsiplərinin qorunması istiqamətində üzərinə düşən məsuliyyəti qətiyyətlə yerinə yetirir.

Daha sonra çıxış edən Naxçıvan şəhər prokuroru Qalib İsmayılov bildirib ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiyamız hüquqi dövlətin əsasını qoyaraq insan hüquq və azadlıqlarının qorunmasını təmin edib. Qeyd olunub ki, bu gün ölkəmizdə qanunun aliliyi prinsipi daha da möhkəmlənib, hüquq-mühafizə orqanlarının fəaliyyəti vətəndaşların hüquqlarının müdafiəsinə yönəlib.

Konfrans çərçivəsində "Hüquqi dövlətin təməli – Konstitusiya və milli suverenlik" və "Zəfərdən suverenliyə – dövlətçilik, gənclik və milli ideya" mövzularında iki panel müzakirə təşkil olunub.

Konfrans bədii hissə ilə davam edib.

# Müəllim və şagirdlərə planşetlər təqdim olunub



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qeyd olunan mühüm məsələlərdən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin fəaliyyətə başlaması olub. Bu istiqamətdə görülən işlərin davamı olaraq noyabrın 13-də NDU-nun Beynəlxalq Kembric Məktəbinin müəllim və şagirdlərinə universitet rəhbərliyi tərəfindən planşetlər təqdim olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev şagirdlərlə görüşü zamanı bildirib ki, Dövlət Proqramı çərçivəsində universitetin beynəlxalq təhsil sisteminə inteqrasiyası və müasir tədris imkanlarının genişlənməsi daim diqqət mərkəzindədir. Bu proqramın bir hissəsi olaraq yaradılan bu məktəb Kembric Beynəlxalq Təhsil Sistemi ilə işləyir və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir.

Qeyd olunub ki, şagirdlər məktəbin özünün təmin etdiyi elektron resurslardan istifadə edirlər. Belə ki, bu elektron resurslar şagirdlər üçün nəzərdə tutulub və onlara təqdim olunan xüsusi planşetlər vasitəsilə təhsil prosesi daha əlçatan və mərkəzləşmiş olacaq.

"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli Sərəncamında deyilir: *"Ordubad rayonu Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir. Rayonun ərazisi Qədim Daş dövründən başlayaraq Son Orta əsrlərə qədərki dövrə aid abidələrlə zəngindir. Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Qapıcıq dağının cənub-şərq yamacındakı Qaranquş yaylağında Tunc və İlk Dəmir dövrlərinə aid edilən, üzərində ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar olan qaya parçaları aşkar edilmişdir ki, bu da əcdadlarımızın həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini izləməyə imkan verir. Rayonun ərazisindəki Xaraba Gilan şəhər yeri Orta əsrlər dövrünün şəhər həyatını, təsərrüfatını, sənətkarlığını, müdafiə sistemini, su təchizatını və memarlığını tədqiq etmək üçün unikal arxeoloji abidədir".*

# Ordubad – qoruq şəhər



## Dövlət Proqramının icrası Azərbaycanın incisinə şöhrət qazandıracaq











Ruhiyyə Rəsulova

### *Ordubadı, nə deyim, vəsfi gülüstanə dəyər*

Əzəmətli dağların dövrələdiyi qədim Ordubadda dağ əzəməti var. Əzəmətinə güvənərək bu şəhər əsrlərdir ki, sinəsində daş yaddaşını qoruya bilib. Buzxana, Qeysəriyyə, hamam, mədrəsə, məscidlər, qədim məhəllələr, kəhrizlər, yaşı 200-ü ötmüş evlər. Daha nələr-nələr. Ordubad təpədən-dırnağa tarixdir – oxunmalı, sevilməli, qorunmalı şəhər – qoruq şəhər!

Tarixi mənbələr göstərir ki, I Şah Təhmasib dövrün mahir rəssam və nəqqaşlarına Qəzvində Çehelsütun şah sarayının böyük salonlarının divarlarında Ordubad mənzərələrini təsvir etmək göstərişi vermişdi. Səfəvi hökmdarları Ordubad şəhərini həmişə diqqətdə saxlamışlar. 1604-cü ildə I Şah Abbasın xüsusi fərmanı ilə şəhər əhalisi xəzinəyə veriləcək bir sıra vergilərdən azad edilmişdir. Bu fərman daş abidə kimi indi də Cümə məscidinin divarında əks olunub.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda tarix-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bərpa layihələrinin hazırlanması, tarixi eksponatların qorunması, arxeoloji araşdırmalar aparılması institusional inkişafın mühüm tərkib hissəsi kimi müəyyənləşdirilib. Bu baxımdan, şəhərin baş meydanında yerləşən, onun arxitekturasına xüsusi görkəm bəxş edən Cümə məscidinin tarixiliyi qorunmaqla bərpasına diqqət yetirilmiş, bu ilin mart ayının 18-də təmir-bərpadan sonra istifadəyə verilmişdir. Sənətkarlığın bir neçə növünü özündə birləşdirən və XVII əsrə aid olan görkəmli memarlıq abidəsinin bərpası tarixi və dini dəyərlərə sahiblik hissinin bariz nümunəsi kimi mühüm əhəmiyyət kəsb edir.

### *Bənzəri olmayan qədim məhəllələr*

Şəhərin küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydandan şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin əsasını təşkil edir. Tarixi mənbələrdə yazılır: "…1752-ci ildən sonra Naxçıvan xanlığında iki şəhər – Naxçıvan və Ordubad şəhərləri siyasi və iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edirdi. Xanlığın ikinci şəhəri Ordubad idi. Bu şəhər iki dağ arasında yerləşirdi. Ordubad şəhəri inzibati cəhətdən 5 məhəlləyə bölünmüşdü: Sərşəhər, Kürdətal, Anbaras, Mingiz, Üçtürləngə".

Həmin məhəllələrə nisbətən kiçik məhəllələr də var: "Qarahovuz", "Qaraçanaq", "Dilbər", "Əngəş", "Əsgərxan", "Varsan", "Musa təngi" məhəllələri kimi.

Məhəllələr Ordubadın tarixi qədər qədimdir. Sovet dövründə məhəllələrin adı dəyişdirilsə də, əhali məhəllələrin tarixi adlarını yaşadıb. Hər addımında tarix qoxan, vaxtilə geniş şəkildə yayılmış sənətkarlıqdan xəbər verən Ordubadın altı da, üstü də bir sərvətdir. Bu sərvətə nələr daxil deyil? Qədim küçələr, özünəməxsus arxitekturası ilə diqqətçəkən yaşayış evləri, şəbəkə sənətinin geniş tətbiq olunduğu məscidlər, yayın cırhacırında ürəyə sərinlik gətirən kəhrizlər və nəhayət, qocaman çinarlar. XX əsrin əvvəllərində bu gözəl yurdu ziyarət etmiş Nefodov adlı bir səyyah yazıb: "Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir".

### *Yaşı 200-ü ötmüş evlər…*

Yaşı əsri ötmüş evlər, ilk olaraq, taqqılbablı, zəncilbablı qapıları ilə diqqət çəkir. Giriş səkkizguşəli ulduz formasındadır. Bir neçə istiqamətdə çıxışlar qoyulub. Bəzisi həyətə, bəzisi evə və ya zirzəmiyədir. Hələ də qorunmaqda olan belə evlər muzeyi xatırladır, divarların qalınlığını önə çıxaran iri pəncərələrdən sanki keçmişə boylanırsan. Nənələrimizin şirin laylasını, babaların öyüd-nəsihətini pıçıldayır bu divarlar. Qədim evlərdə sənətkarların əl işləri – misgərlik, dəmirçilik, dulusçuluq, nəqqaşlığı özündə əks etdirən məişət əşyaları da qorunub saxlanılır. Bu qabların bəzilərindən indi də məişətdə istifadə olunur. Ağırlığı və qalınlığı, nəqşləri ilə diqqətçəkən mis məcmeyilərdə indi də təndir və kürə paxlavaları bişirilir. Sənətlə kulinariya bir vəhdət təşkil edir. İllərdir ki, su kimi saf, çinar kimi uzunömürlü, din-iman sahibi mehriban ordubadlıların sayəsində nəinki məhəllələrin meydanlarında, eləcə də yaşayış evlərinin həyətində "unikal" hidrotexniki qurğulara malik kəhrizlər göz bəbəyi kimi qorunur, istifadə olunur. Tarixçilərin dediyinə görə, vaxtilə Ordubadda 100-dən çox çeşmə, kəhriz olub. Bu gün 34 belə su mənbəyindən istifadə edilir. Bu kəhrizlərin adı da var: "Hacı Tağı", "Ambaras", "Cəyənni göl", "Hüseyn bəy", "Qızlar", "Hamam", "Qırxayaq", "Şai", "Şıxəli xan", "Meyrəmçə", "Hacı Fəttah", "Nəhər" və sair.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə yaradılan "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri də artıq müəyyənləşdirilib. Qoruq tarix və mədəniyyət üçün xüsusi əhəmiyyət kəsb edən, Ordubadın Şərq memarlıq ənənələrini özündə yaşadan, zəngin milli ornamenti, özünəməxsus memarlıq üslubu ilə seçilən abidələrinin, arxeoloji obyektlərinin və etnoqrafik materiallarının kompleks şəkildə cəmləşdiyi və dövlət tərəfindən mühafizə edilən ərazidir. Qoruğun sərhədlərinin və mühafizə zonasının döngə nöqtələrinin koordinatları müəyyən edilərək xəritədə təsviri hazırlanıb. Ordubad şəhərinin yerquruluşu planı və şəhərin ünvan xəritəsi əsasında qoruğun sərhədləri 2 400 693 kvadratmetr müəyyən edilib. Qoruğun mühafizə zonasının uzunluğu 9,79 kilometr, ərazisi 11,81 hektarda qərarlaşdırılıb. "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun mühafizə zonası ilə birlikdə ümumi sahəsi 2 518 710 kvadratmetr (251,87 ha) təşkil edib. Bildirək ki, qoruq ərazisində 1-i dünya, 1-i ölkə, 218-i yerli əhəmiyyətli olmaqla, ümumilikdə, 220 daşınmaz tarix və memarlıq abidəsi mövcuddur.

### *"Ərbabın iş yeri" yenidən canlanacaq*

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Ordubad şəhərinin Baş planına əsasən bu ilin sentyabr ayından bərpasına başlanılan abidələrdən biri də "Ərbabın iş yeri" kimi tanınan tarixi binadır.

"Ərbab" ləqəbi ilə tanınan Rzaqulu Rzayev ipək fabriki yaratmış və onun ilk direktoru olmuşdur. Ərbabın yaşadığı və fəaliyyət göstərdiyi ərazi məşhur tarixi mədrəsə binasına bitişik idi. Mənbələrə əsasən Ərbab evinin aşağı mərtəbəsi barama yığımı, ikinci mərtəbəsi isə ipək sarınması üçün istifadə olunurdu. Bu evin digər xarakterik xüsusiyyətlərindən biri də divarların enli və qalın olması, çatma tağlarla işlənməsidir. Hazırda binada tikinti-bərpa işləri gedir. Qəzalı vəziyyətdə olan arakəsmələr sökülüb, suvaq qaşınıb, dam örtüyü yenilənir. Tarixi tikili qoruğun inzibati binası üçün nəzərdə tutulub. Bununla da həm tarixi bina qorunmuş olacaq, həm də iş yeri olaraq yenidən canlanacaqdır. Tarixi məqamları özündə yaşadan bina istisna deyil ki, turistlərin də diqqətini cəlb edəcəkdir.

Cümə məscidindən bir qədər yuxarıda yerləşən "Ərbabın iş yeri"nə bitişik tarixi bina da bərpa olunacaq. Günümüzədək gəlib çatmış XVIII əsrə aid bu abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli Qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi kimi qeydə alınmışdır. Özündə böyük tarixi dövrü hifz edən mədrəsə binasının bərpası uşaqların təhsil alması uğrunda şövq və cəsarət nümunəsi göstərmiş başda Məhəmmədtağı Sidqi olmaqla burada çalışan bütün ziyalıların ruhuna hörmət və fədakarlığa verilən qiymətin təzahürü olacaqdır.

### *Sərşəhər məscidi və meydanı bərpa olunacaq*

XVIII əsrə aid Sərşəhər məscidinin də bərpası üçün layihələndirmə işləri artıq yekunlaşıb. Layihəyə əsasən Sərşəhər məscidi, Sərşəhər meydanına giriş baş tağlarının bərpası və meydanın abadlaşdırılması işləri həyata keçiriləcək. Xatırladaq ki, meydanda hər il milli adət-ənənələrimizin daşıyıcısı olan Novruz bayramı təntənə ilə qeyd olunur və bu el şənliyinə muxtar respublikanın digər bölgələrindən də qatılırlar. Digər məscidlərdə olduğu kimi, Sərşəhər məscidi də çinar və kəhriz komponenti ilə tamamlanıb. Sərşəhər meydanının bərpası burada mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün də yeni imkanlar açacaq.

Görkəmli yazıçı Məmməd Səid Ordubadinin, kimyaçı alim Yusif Məmmədəliyevin, maarifçi pedaqoq Məhəmmədtağı Sidqinin doğulduğu bu şəhərin tarixi barədə XVII əsrə dair Qeysəriyyə binasında yerləşən Tarix-Diyarşünaslıq muzeyindən daha ətraflı məlumat almaq mümkündür. Qədim dövrlərdən başlamış müasir dövrədək minlərlə eksponatı hifz və nümayiş etdirən muzey Ordubadın zəngin tarixindən, qədim sənətkarlıq ənənələrindən, ədəbiyyatından, mədəniyyətindən, bütün bu zəngin irsin formalaşmasında xidmətləri olan şəxsiyyətlərindən sənə xəbər verəcəkdir.

Ordubad Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında ölkə başçısının 2024-cü il 21 fevral tarixli Sərəncamı Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği işinə öz mühüm töhfəsini verəcəkdir. Qoruğun idarə olunmasının təkmilləşdirilməsi əraziyə daha çox turistin cəlb olunmasına rəvac verəcək, sənətkarlıq sahələrinin dirçəldilməsinə, əhalinin məşğulluğunun təmin olunmasına, yerli məhsul istehsalının artımına da, təbii ki, təsir göstərəcəkdir.

# Qayaları bənövşəli, xınalı...

*Naxçıvan qayaları bənövşəli, xınalıdır,*
*Dodaqları gül-çiçəkli,*
*Yanaqları lalə xallı,*
*Bəzən köksü buz bulaqlı,*
*Bəzən kəklik yuvalıdır.*



İnsan gələcəyə can atsa da, keçmişi daha çox xatırlayır. Arzular əlindən tutub, gələcəyə qaçırsa da, gözü arxada, keçən günlərdə qalır.

Sanki ömür geriyə baxa-baxa irəli qaçmaqdır. Bəlkə də, ona görə hərdən "yıxılırıq..." Niyə belədir? Sözün düzü, niyəsi bir az qəliz söhbətdir. Bu sualı bir dəfə mənə yaxın dostum da vermişdir. Təxminən, belə cavab vermişdim: "İnsanın anadan olmasından ölümünə doğru istiqamətlənmiş bir düz xətt götürək. Bu xətt üzərindəki hər irəlidəki nöqtə sıfıra – yoxluğa, geridəki hər nöqtə isə var olmaq, dünyaya gəlmək anına yaxınlaşır. İnsan fitrən, şüuraltı olaraq birdəfəlik getmək, yox olmaq istəmir, dərindən fikirləşəndə, yoxluğun sonsuzluğu, mücərrədliyindən dəhşətə gəlir".

İndi bir səbəb də əlavə edim: ömür keçdikcə yaxınların da dünyadan köçür, geridə qalan nöqtələr kimi sən onlardan uzaqlaşırsan. Onlarla bağlı ülvi hisslər, xatirələr keçmiş nöqtələrdə qalır. Ata-ananı, bacı-qardaşı nəvələr, gəlinlər, kürəkənlər əvəz edir… Sağlamlığın gedir, gəncliyin, möhtəşəmliyin geri günlərdə ilişib qalır. Dünyanı, insanları daha çox tanıyırsan, marağın itib gedir keçmişə. Bir sözlə, yoxluğa elə yoxluq olub qarışırsan…

Ona görə də uşaqlıq və gənclik dövrləri hər bir insan üçün ülvi bir aləmdir…

***

Hər il yayın əvvəlində kəndimizdən Zor bulaq yaylağına köç edərdik. Məktəb açılana qədər orada qalardıq.

3 ay biz nəinki televizor, elektrik işığı, heç avtomobil də görməzdik. Bir texnika görərdik – süddən yağ ayıran "süd maşını". Bir yarış izləyərdik, "at yarışı..."

Bir xəbəri gözləyərdik: "Kənddən adam gəlir, şaqqulu badam gəlir", – deyərdik. Yemiş, qarpızı elə eşşəyin üstündə, "meşoğun" üstündən iyləyərdik.

Məkələri axşamçağı təzək közündə kabab edərdik.

Ayağımızı təndirə sallayıb ulduzlara baxardıq, arzuların əl çatmazını seçərdik.

Əsas bir işimiz vardı – quzu otarmaq. Bir problemi düşünərdik: quzuları Bədəl Yurduna, İbo Pironun arxacına, Göy təpənin döşünə, Ağ qaya ətrafına – hansı istiqamətə aparsaq, çox otlayarlar?

Quzular otlayar, uzanardıq gül, çiçək içinə, onların xırpıltılı səsinə qulaq asardıq. Adam görməzdik ki, düşüncələrimiz və biz olardıq. Bir də quzular pələng boğar. Təsadüfən insan görəndə sevinərdik.

Bir cür su içərdik – bulaq suyu...

Bizim obada yanaşı iki bulaq var idi, "Qurdlu bulaq" deyirdilər. Qurdlu filan deyildilər. Bir az aralıda sal qayaların dibindən təkrarsız, özünə məxsus səslə, gur çıxan bir bulaq da var idi, ona möhtəşəmliyinə görə "Zor bulaq" deyirdilər. O biri bulaqlar guya ki, bunun paxıllığını çəkirmiş kimi adlarını "qurdlu" qoymuşlar.

Zor bulağın ətrafında sıra ilə daha yeddi bulaq var idi. Hər birinin suyu birbirindən sərin, özlərindən dərin...

Ancaq Zor bulaq, doğrudan da, zor idi, səsinə, buzluğuna, gurluğuna görə. Elə bil, qayalar içindən həyat çıxırdı dünyaya, özü də zor çıxırdı.

Günorta quzular mələşə-mələşə analarından süd içirlər, haradasa at kişnəyir, itlər qonşu obadan gələn atlı qonaqlara hücum çəkir... Babam qonaq qarşılayır, keçiləri mən tuturam, nənəm, anam süd sağır…

Bir gün anama dedim, tez sağ, yağış yağacaq. Digər qadınlar güldü ki, belə günəşli havada yağış yağar? Doğrudan da, günəşli və isti idi. Anam elə yenicə çadıra girib, südü süzgəcdən digər vedrəyə süzürdü ki, göy guruldadı, leysan tökdü... İslanmış qadınlar buna məəttəl qaldı, xeyli bu haqda danışdılar.

Bir neçə gün sonra anamla söhbətdə biri dedi: "Ərzaq qurtarıb, bu kişi də kənddən gəlmək bilmir". Eşitdim, dedim ki, birisigün gələcək. Doğrudan da, həmin adam birisi gün gəldi. Bu dəfə daha çox danışdılar ki, sən bunları haradan bilirsən? Məni tərifləyib "Nostradamus" kimi öydülər.

Daha sonralar 2014-cü ildə, qələbədən 6 il öncə yazdığım "Sahilsiz təzadlar" romanında Şuşanı azad etdiyimizi, Vaqifin məqbərəsinin təmir olunduğunu, orada tez-tez konfranslar keçirildiyini, mədəniyyət mərkəzinə çevrildiyini yazdım.

Sonralar, doğrudan da, belə oldu. Bu dəfə də dedilər: "Sən bunları haradan bilirdin?" Hətta 60-a yaxın alim, yazıçı, ziyalı AYB-yə, AMEA-nın humanitar bölməsinə, Mədəniyyət Nazirliyinə müraciət etdilər ki, bu kitabın Şuşada təqdimatını edək.

Mən bunları haradan bilirdim? Öncə görmə, təb gəldi, ilham getdi, qulağıma səs gəldi, gözümə nəsə göründü filan söhbətləri həmişə əfsanə hesab etmişəm. Dədəm məni belə öyrədib. O özü yeniyetmə olanda çiynində, alnında "işıq", "nur" görüb nənəmgil. Səs-küy salıblar, heyrətləniblər, molla zad gətiriblər… Mollalar belə qənatə gəlib ki, bu oğlan ya seyid, ya da pəhləvan olacaq.

Sonralar Qarayevdən soruşanda ki, ay dədə, bu nə məsələdir, gülüb deyirdi ki, gecə yatağa girəndə nənənin öz toxuduğu yun köynəyi sürətlə dartıb başımdan çıxarırdım, elektriklənib işıq saçırdı, bunlar da təhsilsiz adamlardı, elə bilirdilər, nurlanıram...

Və mən həmişə Qarayevdən Allaha, elmə və Qurana inanmağı öyrəndim. O deyir ki, elmdən başqa heç bir həqiqət yoxdur.

Yaylaqdakı iki hadisəni mən təsadüfən deməşdim. Amma Şuşanı azad edəcəyimizi çox düşündükdən sonra məntiqlə hesablamışdım. Çox sadə: bizim xalqımızın, dövlət və ordunun ali məqsədi idi bu. Və bütün hazırlaşmalar, hadisələr zəfərə aparırdı. Allah şəhidlərimizə rəhmət etsin.

Qayıdaq yaylağa…

Aydın səmada buludlar öz-özündən qəm çəkir, nəm çəkir...

Ocaq üstə, köz üstə çiçək yemiş çəpiş ətindən bözpört, kabab bişir,

Tüstüsündən, qoxusundan adam "şişir".

Gözün baxır Zor bulaqdan gələn nazlı qıza, yanağında lalələr, dodağında çiçəklər, gülümsəyən gözlərində şəfəqlər...

Belə göz olar? Ürəyini aparır, rəngin saralır.. Bilmirsən ki, bulud çəkib, meh gətirib, ya Zor bulaq damcı-damcı öz ətrafına çiləyib bu qızı...

Yay ayları idi, Zor bulaq obası belə idi...

***

*Yenə o dağ olaydı, qarğı atın üstündə,*
*Bir konfetin, bir almanın üstündə,*
*"Vuruşardı", dalaşardı uşaqlar,*
*Keçmişdən, bu gündən xəbərsiz,*
*Gələcəyə uçan, qaçan uşaqlar,*
*Öz-özündən şişən, coşan uşaqlar...*

***

*Yenə o dağ olaydı,*
*Zirvələrdən baxıb sənə,*
*Hey yığardım çiçək sənə, gül sənə.*
*Buludların kölgəsində, mən at üstdə,*
*Sənsə bitib tükənməyən xəyalların*
*təşnəsində,*
*Sanki göydə, yerdə, indidə,*
*həm gələcəkdə,*
*Yarışardıq, baxışardıq,*
*Zülmətlərin yoxluğuna qarışardıq.*

***

*Yenə o dağ olaydı,*
*Darayardın saçlarını.*
*Hirslənərdin, bulaq güzgüsündə,*
*Görəndə sən qıçlarını.*
*Mən də bundan zövq alardım, gülərdim,*
*Əlimdəki gərməşov ağacımla,*
*Sındıraraq aynasını bulağın,*
*Damcıları tellərinə,*
*Muncuq kimi düzəydim.*

Zor bulaq "zor" idi, elə uşaqlıq, gənclik də "zor" idi.

Nə edə bilərik?

Dönüb geridəki nöqtələrə, Zor bulağa, bulaqdakı əksinə baxan, tellərinə damcılar düzdüyümüz qıza baxa-baxa əlimizdən tutub bizi gələcəyə aparan arzulara yoxluğa doğru qaçırıq...

**Sadıq QARAYEV**
***biologiya üzrə fəlsəfə doktoru, dosent,***
***AYB və Rusiya Yazıçılar İttifaqının üzvü,***
***Prezident təqaüdçüsü,***
***"Qızıl qələm" mükafatçısı***



***İtmişdir***

Şərur rayonu, Muğancıq-Mehrab kənd sakini Fərəcova Yasəmən Cəfər qızına məxsus JN-135 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Abdullayeva Nazilə Abbas qızının adına olan JN-458$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Qədimova Səkinə İbrahim qızının adına olan JN-004$^{A}$ nömrəli, 10200028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kəndində yaşamış İsmayılov Vilayət Nəsib oğlunun adına olan JN-187$^{A}$ nömrəli, 10216048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kəndində yaşamış Əliyev Qurbət İsmayıl oğlunun adına verilmiş 102013004264 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
**Baş redaktor:**
**SARA ƏZİMOVA**

**Ünvan:** ***AZ-7000,***
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 273

***Nömrəyə məsul:*** **Ramiyə Əkbərova, Turan Məmmədli, Türkanə Əsədova**
***Dizayner:*** **Həbibə Allahverdiyeva**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*